# Beynəlxalq Astronavtika Konqresi 50 ildən sonra yenidən Azərbaycanda keçirilir




Oktyabrın 1-də Bakıda Milli Məclisin inzibati binasında Beynəlxalq Astronavtika Federasiyasının (BAF) nazirlər və parlament üzvləri üçün 13-cü beynəlxalq toplantısı keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbiri açan BAF-ın prezidenti Kley Mouri görüş iştirakçılarını salamlayaraq, 1950-ci ildən etibarən keçirilən Beynəlxalq Astronavtika Konqresinin əhəmiyyətindən danışıb. O, kosmos fəaliyyətinin yeni texnologiyaların inkişafına, insanların həyat şəraitinin yaxşılaşmasına, iqtisadiyyatın, elmin və təhsilin tərəqqisinə təsiri barədə fikirlərini bölüşüb, tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, 50 il bundan əvvəl - 1973-cü ildə Bakıda Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə 24-cü Konqres keçirilmişdi. Bu il biz Ulu Öndərin 100 illik yubileyini qeyd edir və onun xatirəsini ehtiramla yad edirik. İndi ölkəmiz ən böyük kosmik hadisəyə - 74-cü Beynəlxalq Astronavtika Konqresinə 2023-cü ildə evsahibliyi edir. Bu, o deməkdir ki, Beynəlxalq Astronavtika Konqresi yarım əsrdən sonra bölgəmizə qayıdıb.

Komitə sədri bildirib ki, kosmos böyük bir resursdur, peyk sənayesi elm və texnologiyanın, eləcə də rabitə zəncirinin ayrılmaz hissəsidir. Azərbaycan ilk peykinin buraxılmasından sonra 2013-cü ildən dünya kosmik klubunun fəal üzvü olub. Bir ölkə olaraq, sürətlə inkişaf edən qlobal kosmik ekosistemin bir hissəsi olmaqdan və bu sektorun bütün dünyanın xeyrinə inkişafına töhfə verməkdən məmnunuq.

İtaliyanın ölkəmizdəki səfiri Klaudio Taffuri bu tədbiri kosmos sahəsində çox önəmli hadisə kimi qiymətləndirib.

Tədbirin moderatoru, BAF prezidentinin müşaviri Dominik Tilmans kosmos fəaliyyətinin insanların rifahının təmin edilməsində, iqlim sahəsində risklərin idarə edilməsidə, yeni iş yerlərinin açılmasında, ölkələrin təhlükəsizliyinin təmin edilməsində rolu, peyklərlə bağlı həllərin yerinə yetirilməsi barədə fikirlərini bölüşüb.

Sonra tədbir iştirakçıları 3 panel mövzuda müzakirələr aparıblar. Birinci panel "Dövlət xidmətlərinin keyfiyyətini yaxşılaşdıran kosmik həllər", ikinci panel "Fəlakətlərin aradan qaldırılması və risklərin idarə edilməsi üçün kosmik həllər", üçüncü panel isə "Resursların idarə edilməsində kosmik həllər" mövzularına həsr olunmuşdu.

Müzakirələr zamanı BAF-ın sabiq prezidenti Jan-İv Le Qal, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Salim Almalik, BAF-ın Slovakiya ofisinin direktoru Mişel Briçta, "Azərkosmos"un İdarə heyəti sədrinin müavini Fuad Aslanov, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Omuraliyev, Türkiyənin sənaye və texnologiya nazirinin müavini Ahmet Yozqatlıgil, Türkiyə Böyük Millət Məclisinin üzvü Zeynep Yıldız, Milli Məclisin komitə sədri Tahir Mirkişili, deputat Vüqar Bayramov, Rumıniya Senatının komitə sədri Marius Humelniçu, Almaniya parlamentinin deputatı Malte Kaufman, Polşa parlamentinin nümayəndəsi Boqusłav Uontor, Avstraliya Senatının üzvü və nazir Kris Şaçt və başqaları çıxış edərək kosmos fəaliyyətinin əhəmiyyəti, dövlət xidmətlərinin kosmos həlləri, bu sahədə həyata keçirilən layihələr, yeni kosmos dövrü və digər məsələlər barədə fikirlərini bölüşüblər.

İclasa yekun vuran Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili və BAF prezidentinin müşaviri Dominik Tilmans bu cür görüşlərin keçirilməsinin əhəmiyyətindən danışıblar, aparılan müzakirələrin faydalı olduğunu diqqətə çatdırıblar, Azərbaycanın evsahibliyi etdiyi 74-cü Bakı Beynəlxalq Astronavtika Konqresinin işinə uğurlar arzulayıblar.

***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 3 oktyabr.- S.2.